UOT: 33

*Mirsadiq Mirdamət oğlu TAĞIZADƏ*
*magistrant*
*miri.taghizade@gmail.com*

*Firuzə Nəcəf qızı ƏLİYEVA*
*i.f.d., AKU*
*10.30546/1.72.2024.1*

# BİZNES RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİNİN METODLARI VƏ TƏNZİMLƏNMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Biznes risklərinin idarə edilməsinin qiymətləndirilməsi, inteqrasiya olunmuş layihə risklərinin idarəetmə sisteminin tərtib edilməsi və prosesin tətbiq edilməsi araşdırılmışdır.

**Tədqiqatın metodologiyası** – Tədqiqaq aparılarkən ümumiləşdirmə, təhlil metodlarından, milli iqtisadiyyatım inkişafı və tənzimlənməsi ilə bağlı fərman və sərəncamlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Biznes risklərinin idarə edilməsi sistemlərinin metodları və tənzimlənməsi layihələrin düzgün qiymətləndirilməsində bir çox müəssisələr üçün yararlı ola bilər.

**Tədqiqat nəticələri** – İdarəetmə sahəsində layihə risklərin düzgün təmin olunması, risklərin qiymətləndirilməsi, müəssisədə iqtisadi səmərəliliyin formalaşmasında risklərin düzgün idarə edilməsinin mühüm əhəmiyyətə malik olduğu araşdırılır və səmərəliliyin formalaşmasında əsas meyar kimi təqdim olunur.

***Açar sözlər: müəssisə, risk, layihə, biznes, gəlir, maliyyə, təhlil.***

## *Giriş*

Müstəqil Azərbaycan Respublikasının amirlik sistemindən bazar iqtisadiyyatına keçməsi ölkədə biznes iqtisadiyyatının inkişafına bir təkan verdi. Milli iqtisadiyyatın bazar prinsipləri əsasında formalaşmasında həlli vacib olan əsas məsələlərdən olan biznesin inkişaf etdirilməsi ön plana çəkilir və bu istiqamətdə mühüm addımlar atılır. Biznes qazanc əldə etrmək üçün fəaliyyət növüdür və istehlakçıların tələbatının ödənilməsi, mənfəət əldə edilməsi, təşəbbüskar insanlar arasında işgüzar münasibətlərdir.

Bazar iqtisadiyyatı şəraitində biznes risklərinin qiymətləndirilməsi problemlərinin həlli zamanı müstrəqil olaraq idarəetmənin mühüm tərkib hissəsini təşkil edən qərarlar qəbul etmək lazım gəlir. Ayrı-ayrı iqtisadi vəziyyətlər üçün riskin səviyyəsinin qiymətləndirilməsinin təxmini nəticələri müəyyən qiymətliliyə malikdir. Bir çox idarəetmə qərarları risk şəraitində qəbul edilir və onları konkret hallarda daha yaxşı qərar qəbul etmək imkanları yaradır. Məlumdur ki, biznes aləmində müvəffəqiyyətli təsərrüfat və sahibkarlıq fəaliyyətinin seçilməsi strategiyanın düzgünlüyündən və əsaslılığından asılıdır.

**Biznes planının reallaşması** – Müəyyən edilmişdir ki, biznes planında əsas bölmələrin sayı və tələblər fərqlidir. E.A.Utkin belə hesab edirdi ki, ilk baxışda biznes planları bir-birindən nə qədər çox fərqlənsələr də, mahiyyətcə o, aşağıdakı bölmələrdən ibarət olmalıdır;

Biznes planının qısa məzmunu; fəaliyyəti; yaradılan, yaxud mövcud müəssisənin və onun istehsal edəcəyi məhsulun təsviri; bazarın təhlili və tədqiqi; marketinq planı; istehsal və maliyyə planı; mövcud riskin qiymətləndirilməsi və sığorta [1, s. 458].

Uğur qazanmaq, rəqabət mübarizəsində qalib gəlmək üçün səmərəli, məhsuldar strategiya işləyib hazırlamaq biznes sahəsində ən vacib məsələlərdəndir. Bildiyimiz kimi, risklər, xarici risklər kompaniyanın fəaliyyəti ilə birbaşa əlaqəli deyildir və bu risklərin səviyyəsinə birbaşa təsir amilləri və dolayı təsir amilləri təsir edir. İdarətmə keyfiyyətinin səviyyəsinə texniki təhlükəsizlik səviyyəsi, rəqabətin qiymətləndirilməsi, ixtisaslaşma səviyyəsi, əməyin məhsuldarlıq səviyyəsi da-

xili risklərə əsaslanır və təsir edir.

Ölkəmizdə geniş istinad edilən rus tədqiqatçıları tərəfindən “risk” anlayışlarına verilən tərifləri belə ümumiləşdirmək olar:

- Risk – itkinin başvermə və ya gözlənilən gəlirin əldə edilməməsi ehtimalıdır [8, s. 41];
- Risk – müəyyən addım atarkən şirkətin öz resurslarını itirməsi və gəlir əldə etməmə ehtimalıdır. [4, s. 74];
- Risk – elə fəaliyyət növüdür ki, əlverişli nəticə əldə etmək ümidi ilə alternativlər arasından seçilmiş elə variantdır ki, uğursuzluq baş verdiyi halda digər variantdan daha pis vəziyyətə düşmək ehtimalı mövcuddur. [9, s. 63];
- Risk – qaçılmaz seçim şəraitində qeyri-müəyyənliyin qarşısının alınması məqsədilə atılmış addımdır. Bu zaman gözlənilən nəticəni, uğursuzluğu, məqsəddən yayınmanı kəmiyyət və keyfiyyətcə ölçmək mümkündür. [10, s. 52].

Layihənin icrasında statistik risklər xarakterizə edilir və layihənin icrasında zərəri ifadə edir. Statistik risklərin əsas amilləri bədbəxt hadisələr, təbii fəlakətlərin nəticələrinin neqativ təsirləri, üçüncü şəxs mülkiyyətinin təhlükəsidir. Risklərin təsnifatının konkret xüsusiyyətlərini bilmək, digər amillərə görə oxşar növlərini qruplaşdıraraq həyata keçirmək olar. Hər zaman layihənin icrasında zərəri statistik risklər ifadə edir və xüsusiyyət təzahürünə malikdir, bununla yanaşı, iqtisadi göstəricilərin davamlı dinamikasını saxlayır və bu riskləri xalis risklər adlandırırlar. Risklərin həcmi yaranan risklərin mövcudluğu ilə qiymətləndirilir. Dinamik risklər layihə icrası zamanı həm də əlavə gəlir, zərər kimi, müsbət və mənfi nəticələrin əldə edilmə mümkünlüyünü bildirir. Daha parlaq dinamik risklər bazar konyunkturundan asılı olan (derivativlərin dəyərinin dəyişməsi; aksiyalar dəyərinin valyuta məzənnəsinin dəyişməsi) layihənin icrası sahəsində əmələ gəlir və özünü bürüzə verir.

Kompaniya layihələr tərtib edərkən portfel risklərini o zaman nəzərə alır ki, portfel riski onun ümumi keyfiyyətinin pisləşməsi ilə bağlı olur və müəyyən bir layihə yatırılmalı zaman digər layihələrlə müqayisədə itkinin mümkünlüyünü göstərir.

Bütün biznes fəaliyyəti ilə məşğul olan iştirakçılar üçün sistematik (diversifikasiya oluna bilməyən) risklər yarana bilər. Bazar qiymətlərinin dəyişməsini, xarici valyutaların mübadilə məzənnələrini, faiz dərəcələrini və s. sistematik risklərdə dəyərin dəyişməsinə şamil etmək lazımdır.

Hər bir konkret layihə üçün qeyri-sistematik (diversifikasiya olunan) risklər xarakterikdir. Biznes fəaliyyətində əhəmiyyətsiz risklər səmərəliliyinin yüksən səviyyəsinin saxlanılması zamanı rəhbərlik önəmlilik çərçivəsi daxilidə biznes fəaliyyətindən olan zərəri şərtləndirir və bu vaxt layihə rəqabətliliyi ola bilər, gəlirin müəyyən hissəsinin itkisinə yol verilə bilər.

Layihəni ümumilikdə kompaniyanın dəyərində proqnozlaşdırılan gəlirdən daha artıq olan əhəmiyyətli risklər şərtləndirir.

Sığorta olunan və sığorta olunmayan risklər layihənin icrası zamanı vacib şərtlərdəndir. Aşağıda sığorta olunan risklər tətbiq olunan risklərdir və başlıca amilləri yanğından və digər təbii hadisələr, daşınma zamanı məhsulun zay olunması, zədələnmələr, sub-podratçıların öhdəliklərinin yerinə yetirilməsi, rəhbərin və ya aparıcı əməkdaşın ölümü və ya xəstəliyi, kompaniyanın iş aktivliyinin dayandırılması və s.-dir

Sığorta olunmayan risklər – sığorta kompaniyaları bu riskləri sığortalamaq istəmir. Müəssisədə sığorta olunmayan risklərin baş verməsi zamanı itkilər müəssisənin öz kapitalı hesabına kompensasiya edilir, yəni sığorta edilir.

Risklərin yaranması şərtlərinin araşdırılması və səbəbi, ehtimal və nəticələrin ağırlığı tam olaraq idarə olunan risklərə aiddir və hər bir konkret müəssisənin fəaliyyətində məşhur olan və dəfələrlə aprobasiya olunmuş idarəetmə metodları mövcuddur.

Layihəni təşkil edən hər bir minimum məqsədinə (vaxt, dəyər, keyfiyyət) risk amilləri neqativ və pozitiv təsir göstərir. Layihə risklərinin idarə edilməsi prosesinin əsas mərhələləri müxtəlif şəkildə təsnifləşdirilə bilər. Hər bir qərar qəbul edən şəxşə imkan verir ki, bu təsnifatda risklərlə

idarəetmədə prioritetləri müəyyən etsin. Qismən idarə olunan risklərin davamlı öyrənilməsinə ehtiyac vardır, idarə olunmayan risklərin müəyyənləşdirilməsi qəbul edilən və təhlil edilən risklər baxımından çox bahalı və uzunmüddətli olduğu üçün məqsədəuyğun deyildir.

Hər bir müəssisə özünəməxsus xüsusiyyətləri baxımından risklərin həyata keçirilmə layihələrinin şəxsi təsnifatı ilə işləyib hazırlaya bilər.

Layihənin məqsədlərinin və risklərinin idarə edilməsi, layihənin icrasında əsas iqtisadi göstəricilərin alınması üçün resurs və vasitələrin məcmusundan istifadə olunur.

Layihə risklərinin idarə edilməsi bir qayda olaraq, məqsədlər və risklər üzrə idarəetmə strategiyasının tərtib edilməsi; risklərin qiymətləndirilməsi; təhlili; risklərin aradan qaldırılması; monitorinqi; müxtəlif şəkildə prosesin əsas mərhələlərində birləşdirilə və təsnifləşdirilə bilər.

Risk menecmenti risklərin idarəetmə strategiyasının tətbiq edilməsi planına söykənir. Risk menecmenti - biznesdə mümkün itkilərin ehtimalını azaltmağa yönəlmiş yaxşı işlənmiş idarəetmə qərarlarının qəbul edilməsi və həyata keçirilməsi prosesidir. Risklərin idarə edilməsi işgüzar nüfuzunu yaxşılaşdıra və şirkətin səmərəliliyini artıra bilər.

Risk menecmeti planı hesablamaların metodları və onların inteqrasiyasını, tədbirlərin keçirilməsi qrafikini, səlahiyyətlərin bölüşdürülməsi, riskin məqbul sərhədlərini, məsuliyyətini və hər bir proses üzrə formasını əks etdirir.

Risk menecmentinin əsas nəticələri:

– təhlükələrin mümkün səbəblərini müəyyən etmək;
– antiböhran həllərinin işlənib hazırlanması və həyata keçirilməsi;
– proqramın həyata keçirilməsinə mane olan amillərin aradan qaldırılması.

Risk menecmenti məlumatların təhlili nəticələrinə əsasən seçilmiş bir və ya bir neçə texnikanın istifadəsini nəzərdə tutur. Bu, bütövlükdə və ümumilikdə şirkətin fəaliyyətinə mümkün təhlükələrin təsirinin tanınmasını nəzərdə tutur. Risklərin siyahısının çox böyük olmasının qarşısını almaq üçün mütəxəssislər əvvəlcədən təhlükələrin seçiləcəyi standartları müəyyən edirlər (meyarları müəyyənləşdirirlər). Təkrarlanan hallarda riskin idarə edilməsi mümkün hadisələr haqqında daha çox aydınlıq təmin edən riyazi hesablama formasını ala bilər.

Ümumiləşdirilmiş və sistemləşdirilmiş üslublar aqressiv və mühafizəkar risk – menecmentinə bölünməyi təklif edir, lakin bununla bağlı mübahisələr var. Bəzi ekspertlər hesab edirlər ki, konkret üslubları ayırmaq mümkün deyil, təhdidlər varsa, şirkət ya riskləri idarə edir, ya da yoxdur.

Əgər yanaşmalar haqqında danışırıqsa, o zaman risklərin idarə edilməsi prosesində xüsusi standartlar hazırlanmışdır. Hər biri riskləri/imkanları müəyyən etmək, təhlil etmək, qiymətləndirmək, onlara cavab vermək və ümumiyyətlə idarə etmək üçün müxtəlif yanaşmaları təsvir edir.

Risklərin təbiətinin araşdırılması onların yaranma mənbələrini müəyyən etməyə imkan verir. Risklər, əsasən aşağıdakı mənbələr hesabına yaranır.

✓ Öz-özünə baş verən, yaxud daxili səbəblərdən törəyən təbii proses və hadisələr, təbii fəlakətlər.

Təbiətin təbii gücləri aşağıdakılar kimi təzahür olunur: zəlzələ, daşqın, qasırğa, tufan, sürüşmə, həmçinin, ayrı-ayrı xoşagəlməz təbii hadisə – şaxta, sırsıra, dolu, ildırım, quraqlıq və s.

Bütün bu proseslər sahibkarlıq fəaliyyətinin nəticələrinə mənfi təsirlər göstərməklə, gözlənilməyən xərclərin mənbəyinə çevrilə bilər.

✓ Təsadüfilik. Sahibkarlıq fəaliyyətinin subyektləri kimi çıxış edən, mövcudluğu ehtimal edilən bir çox sosial-iqtisadi və texnoloji proseslər, çoxvariantlı maddi münasibətlər eyni şəraitdə bu və ya digər oxşar hadisələrin eyni cür baş verməməsinə səbəb olur. Belə ki, burada təsadüfi element mövcud olur. Bu da gözlənilən nəticənin qabaqcadan baş verməsini müəyyən etməyin qeyri-mümkün olduğunu göstərir [2, s. 25].

Risklərin idarə edilməsinin əsas üsulları riskin rədd edilməsi, azaldılması, ötürülməsi və qəbul edilməsidir. Risk alətləri dəsti daha genişdir. Buraya siyasi, təşkilati, hüquqi, iqtisadi, sosial alətlər daxildir və eyni zamanda bir neçə risk idarəetmə metod və alətindən istifadə etmək mümkündür. Ən çox istifadə olunan risk idarəetmə vasitəsi sığortadır. Sığorta gözlənilən zərərin ödənilməsi

üçün məsuliyyətin üçüncü şəxsə (sığorta şirkətinə) verilməsini nəzərdə tutur. Digər alətlərə misal ola bilər:

– həddindən artıq riskli fəaliyyətlərdən imtina (imtina üsulu);
– qarşısının alınması və ya diversifikasiyası (azaltma üsulu);
– bahalı riskli funksiyaların autsorsinqi (köçürmə üsulu);
– ehtiyatların və ya ehtiyatların formalaşdırılması (qəbul üsulu).

Risklərin təsdiq edilməsi müəssisənin risk kartının formalaşmasını əks etdirir. Nəzarətin səmərəli metodlarının müəyyən edilməsi, risklərin idarəedilməsi sahəsində prioritet istiqamətlərini dəqiq təyin etməyə imkan verir. Stress-analizindən kəmiyyət və keyfiyyət qiymətləndirilməsində layihə risklərinin təhlilində istifadə olunur. Riskin kəmiyyət təhlilində risk menecmentinin planında qeyd edilən risklərin təsnifatından, xarici mənbələrin məlumatlarından, müəssisədaxili sənədlərdən istifadə etmək olar.

Riskin kəmiyyət təhlilinin nəticələrinə xərclərin, gəlirin, layihənin icra qrafikinin proqnozu, risklər haqqında biliklər və nail olma ehtimalının qiymətləndirilməsi aid edilir.

Kəmiyyət təhlili risklərin yaratdığı maliyyə itkisinin ağırlığından asılı olaraq, müəssisə risklərinin aşağı salınması üçün nə qədər maliyyə sərf edə biləcəyini göstərir və həmçinin, risk əleyhinə tətbirlərin büdcə həcminin təyin edilməsini.

Risk əleyhinə tədbirlərin işlənib hazırlanması üçün əsas resurslara risk planı, keyfiyyətli təhlil nəticəsində alınmış risklərin təsnifatı, kəmiyyət təhlili, risklər haqqında malik olmaqla məqsədinə nail olması ehtimalının qiymətləndirilməsi, risklərə reaksiya göstərən potensial tədbirlərin təsnifatı, riskin məqbul etdiyi risklərin səviyyəsi, risklərin kəmiyyət və keyfiyyət təhlilinin nəticələri, risklərin potensialı, həcmi daxildir.

Layihə risklərinin monitorinqi və nəzarəti məqbul riskin səviyyəsinin uyğunluğunun, inteqrasiya layihə risklərinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş prosedurların tərtib edilməsini müəyyən edir.

Risk əleyhinə planın işlənib tərtib edilməsi, risklərin sıralanmış təsnifatını, prioritet risklərin onların kəmiyyət qiymətləndirilməsi təsnifatını, xərclərin proqnozu, gəlir, məqsədlərə nail olması ehtimalının qiymətləndirilməsini, müəssisə üçün əlçatan riskə qarşı reaksiyanın potensial tədbirlərinin təsnifatını həyata keçirir.

Layihələrin idarə edilməsi təcrübəsində risklərin azaldılmasının əsas üç üsulu mövcuddur və bunlar aşağıdakılardır:

– risklərin layihə iştirakçıları arasında bölüşdürülməsi;
– sığorta;
– ehtiyat vasitələrinin ödənilməsi üçün gözlənilməyən xərclərin ödənilməsi.

Risklərin idarəetmə strategiyasının tərtib edilməsi risk - menecment planına söykənir və metodologiyanı, səlaiyyət və məsuliyyətlərin bölüşdürülməsi, tədbirlərin həyata keçirilməsi qrafiki, hesablama metodu və onların inteqrasiyasını, riskin müəyyən edilmiş sərhədləri və hesabat formalarını özündə əks etdirir.

Risk – menecment planının tərtib edilməsi nəticəsində;

Risk – menecmentinin müəssisə üzrə rəhbər sənədləri;

Risk – menecment planı; Riskin identifikasiyası alınmalıdır.

İdentifikasiya risklərin idarə edilməsi prosedurları üçün vacib və ehtiyac duyulan olduğu üçün, onun təyin edilməsi praktiki olaraq bütün tənzimləyici proseslərdə və standartlarda verilir.

Risk – Menecerlərin Avropa Assosiasyası Federasiyası tərəfindən işlənib hazırlanmış standartların daha geniş istifadə edilməsini qeyd etmək olar.

Risklərin idarə edilməsində layihə iştirakçıları tərəfindən onun həyata keçirildiyi mühitdəki qeyrimüəyyənliklər və risklərin təzahürü ilə əlaqədar mümkün hadisələrin qapanması nəzərdə tutulur.

Riskin xərclərinin dinamikliyi layihə tapşırığını həyata keçirdikdə sənədlərin hazırlanması zamanı riskin minimuma endirilməsi konsepsiyasının hazırlanması mərhələsində baş verir.

Biznes risklərinin idarə edilməsinin planlaşdırılması, layihə risklərinin idarə edilməsi üçün ya-

naşmaların müəyyən edildiyi və fəaliyyətin planlaşdırıldığı bir prosesdir. Əsas riskin baş verməsinin səbəbləri, qeyri-müəyyənlik, cavabların siyahısı və siyahı kateqoriyalarının müəyyənləşdirilməsi nəticəsində formalaşması müəyyən edilmiş risklərin siyahısına daxildir.

Biznesdə layihə riskləri müəyyən edilir və sənədləşdirilir. Müəyyən edilmiş nəticədə, təhlükə dərəcəsinə görə sıralanan risklərin siyahısı əsas götürülməlidir. Burada əsas qaydalar formalaşdırıldıqda təşkilatın strategiyası, formalarını idarə etməyə imkan verir. Risk kateqoriyalarını müəyyənləşdirən zaman ortaya çıxan siyahı genişlənə bilər, bu da planın tətbiqi zamanı əldə edilən iearxiyanın artmasına səbəb olur.

Risk əleyhinə tətbirlərin planlaşdırılması nəticəsində hazırlanan sənədlərə risklərin aşkarlanması, onların təşkili, riskin təsir etdiyi fəaliyyət sahəsi, onların səbəbi, risk daşıyıcıları və onlarla bağlı məsuliyyət, riskin kəmiyyət və keyfiyyət təhlilinin nəticələri, seçilmiş strategiyanın həyata keçirilməsi üzrə spesifik tədbirlər, tədbirlərin həyata keçirilməsi üçün büdcə, vaxt və s. daxilidr.

**İkinci dərəcəli risklər.** Bu risklər risk əleyhinə tədbirlərin həyata keçirilməsi nəticəsində aşkarlanır. Layihə risklərinin idarə edilməsinin əsas proses sxemi nəzarət riskləri, audit riski, layihələrin həyata keçirilməsi nəticələrinin dövri təhlili kimi təqdim edilir. Baza planları ilə müqayisədə, əsasən əldə edilmiş gəlirlərin təhlilindən istifadə edilir.

Biznesdə risklərin həyata keçirilməsi fəaliyyətindən asılı olaraq dəyişilə bilər, bunlara yerinə yetirilən risklər, proqnozlaşdırılan risklər aid edilə bilər.

Düzgün təyin edilmiş monitorinq və nəzarət prosesləri yerli risklər yaranan kimi səmərəli qərarlar qəbul etməyə yardım edən məlumatlar verir.

Riskin monitorinq və nəzarətinə: risk-menecmentinin planı, risk əleyhinə tədbirlər və əvvəlcədən aşkar olunmuş və sonradan yaranan risklərin təhlilinin keçirilməsi daxildir.

Layihə risklərinin idarə edilməsində riskin azaldılmasında əsas layihənin iştirakçıları arasında risklərin bölüşdürülməsi, yəni riskin bir hissəsinin digər ortaq icraçıya ötürülməsi mövcuddur. Riskin bölüşdürülməsi onunla izah edilir ki, həmin iştirakçı məsuliyyət hiss edir, iştirakçı riskləri yaxşı hesablayır və nəzarət edir. Layihələrin maliyyə planının və müqavilə sənədlərinin tərtibatında risklərin bölüşdürülməsi prosesi həyata keçirilir.

Hər bir layihə aşağıdakı tərəflər üçün də maraqlı hesab edilir:

- yerli icra hakimiyyəti orqanları və bələdiyyələr;
- ictimai təşkilatlar və özəl şirkətlər;
- vətəndaşlar və əhalinin müxtəlif təbəqəsi.

Nəzərə almaq lazımdır ki, layihədə əsas ideya və onun məqsədi dəyişdirilə bilməz və dəyişdirilmir. Sadə layihələrdə bütün işlər bir şəxs tərəfindən də yerinə yetirilə bilər. Mürəkkəb layihələrdə isə irihəcmli işləri və vəzifələri kiçik hissələrə bölmək və bu funksiyaları digər iştirakçılara da həvalə etmək olar [5, səh 43].

Layihələrin həyata keçirilməsində müəyyən geçikmələr xasdır, bu da işin dəyərinin yüksəlməsinə gətirib çıxarır və layihənin ilkin dəyərini üstələyir. Bu hallarda əsas çıxış yolu sığorta kompaniyalarının cəlb edilməsidir.

Biznes risklərinin sığortası gözlənilməz xərclərdən, eləcə də müflisləşmə və qarşı tərəfin öhdəliklərini yerinə yetirməməsi hallarından qoruyur.

Həmçinin aşağıdakı risklərdən qorunmaq üçün sığortaya müraciət edə bilər:

- zərərlə nəticələnən iş şəraitinin dəyişməsi;
- gömrük brokerləri, daşıyıcılar, anbar sahibləri tərəfindən bank zəmanəti müqaviləsinin yerinə yetirilməməsi;
- istehsalın dayandırılması, məsələn, qəza və ya təbii fəlakət nəticəsində.

Zərərlərin qarşısını almaq üçün biznes risk sığortası alınmalıdır. Müqavilə uğursuz olarsa, tələb olunan məbləği üstəgəl gözlənilməz xərclərə görə kompensasiya, istehsal dayandıqda isə itirilmiş mənfəəti və cari xərcləri (əməkhaqqı, fondlara ödənişlər, vergi və rüsumlar, kreditlər üzrə faizlər, amortizasiya) əldə etmək olar. Sığortalının müflis olması halında, zərərin məbləği məhkəmənin qərarı ilə müəyyən edilir (kreditorlara borcun məbləği).

Biznes riski qeyri-adekvat mənfəət və ya hətta qeyri-müəyyənliklə bağlı itkilər riskidir - artan rəqabət, müştərilərin üstünlükləri, tətillər, hökumət siyasətində dəyişikliklər və s.

Biznes riskinə səbəb olan iki risk:

1. Təşkilat daxilində yaranan daxili risk. Bu risklər idarə edilə bilər. Bunlar:

– istehsal riskləri (avadanlığın sıradan çıxması və nəticədə dayanma müddəti, texnoloji köhnəlmə, yanğınlar və s.);

– kommersiya riskləri (daşıma zamanı malların itməsi və ya zədələnməsi);

– maliyyə riskləri (banklar qarşısında öhdəliklərin yerinə yetirilməməsi, məsələn, krediti qaytara bilməmək);

– insan amili (işçilərin səhv qərarları, işçilərin səhlənkarlığı, tətillər, işin dayandırılması).

2. Şirkətdən kənarda yaranan və buna görə də nəzarət edilə bilməyən xarici risk. Xarici risklər heç bir şəkildə şirkətin biznes prosesləri ilə əlaqəli deyil. Bu risklərə aşağıdakılar daxildir:

– qiymətlərin dəyişməsi;
– istehlakçıların zövqünün dəyişməsi;
– hökumətin qaydaları dəyişməsi;
– fors-major hallar;
– artan rəqabət riskləri
– iqtisadi vəziyyətin dəyişməsi;
– texnogen fəlakətlər;
– təbii fəlakətlər;
– sosial-siyasi amillər;
– qanunvericilikdə dəyişikliklər.

Sadələşdirilmiş risk təhlili prosesi riskin qiymətləndirilməsinə keyfiyyət yanaşmasını təsvir edir. Metodologiyanın məqsədi əvvəlcədən müəyyən edilmiş bir tədqiqat sahəsi üçün təhlükəsizlik riski məlumatlarının tərkibini müəyyən etmək, qiymətləndirmək və qeyd etməkdir.

Biznesin planlaşdırılması proseslərinin idarə edilməsinin optimallaşdırılması üçün informasiyanın verilməsi və dəstəyin iqtisadi və riyazi modelləşdirmə metodları kimi qəbul edilməsi üçün süni intellekt tədqiqatlarının nəticələrindən, yəni işlənmə texnologiyasından və ekspert sistemlərinin yaradılmasından istifadə edilməsi təklif olunur. Ekspert sistemlərində bilikləri rəsmiləşdirmək üçün müəyyən qaydalardan istifadə edilməlidir; bu qaydalar insanlar tərəfindən oxşar problemləri həll etmək üçün istifadə olunanlara bənzər məntiqi nəticələr (“idrak nəticələri”) yaratmaq üçün verilənlər və faktlar arasında əlaqələr qurur. Belə bir ekspert sistemi iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün nəzərdə tutulmuş, biznesin planlaşdırılmasında məlumatların verilməsi və qərarların qəbul edilməsini dəstəkləyən intellektual sistemdir.

Geniş istifadə olunan ekspert metodları qeyri-müəyyənlik və ya risk şəraitində bir qrup ekspert tərəfindən həyata keçirilən ekspert qiymətləndirmə metodlarıdır. Risklərin idarə edilməsində ən çox istifadə olunan üsullar ekspert qiymətləndirmə metodu, sıralama və Delfi metodudur.

Ekspert qiymətləndirmə metodu adətən təcrübəli ekspertlərin (ixtisaslı mütəxəssislərin) rəylərinin işlənməsini nəzərdə tutur. Yəni, bu üsul müxtəlif itkilərin ehtimalının təxminlərinin toplanması və öyrənilməsini əhatə edir

## *Nəticə*

Beləliklə, araşdırmalar göstərir ki, düzgün təhlil edilmiş risklər özündə idarəetmə dövrü proseslərin məcmusunu əks etdirir və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün resurslardan düzgün istifadə edilməsinin və metodlarının strategiyası təyin edilir.

Risklərin həcminin və dərəcəsinin azaldılması addımlarının atılması üçün proqramların tərtib edilməsinin həyata keçirilməsi baxımından yekun faza çıxış edir və proqram risk əleyhinə tədbirləri və bunun üçün tələb edilən maliyyənin mənbə və həcmi, konkret icraçılar və yerinə yetirilmə vaxtı şəklində idarəetmə tədbirləri kompleksində özünü əks etdirir.

Düzgün təyin olunmuş monitorinq və nəzarət prosesləri yeni riskər yaranan kimi qərarlar qəbul etməyə yardım edən məlumatlar verir.

Layihə menecerinin riskləri prioritetləşdirdikdən sonra, növbəti addımı təsirin azaldılması planının hazırlanmasıdır.

Şirkətlərdə, biznesdə risk idarəetmə sistemi əsasən səmərəlilik, risk şüuru, hədəfli məsuliyyət iş prosesində inteqrasiya prinsiplərinə cavab verməlidir.

Riskin azaldılması istiqamətlərinin təhlili, qiymətləndirilməsi və təyin edilməsi üçün əsas risklərin təsnifatının başvermə səbəblərinin müəyyənləşdirilməsidir.

Araşdırmalar göstərir ki, şirkət hədəflərini nəzərə alaraq qəbul edə biləcəyi və ya qəbul edə bilməyəcəyi riskin böyüklüyünü və növünü aydınlaşdırmalıdır. Həm də əhəmiyyətini qiymətləndirmək üçün meyarlar müəyyənləşdirməli və qərar qəbuletmə prosesini əsaslandırmalıdır. Risk meyarları risklərin idarəetmə çərçivəsinə uyğun olmalıdır və risk qiymətləndirmə müddətinin əvvəlində təyin olunmalı, nəzərdən keçirilməli, lazım olduqda, tənzimlənməlidir.

Risklərin idarə edilməsi müvafiq mexanizmlərdən istifadə edərək hesablanmalıdır. Risklərin qiymətləndirilməsinə əsaslanan düşüncə təşkilatları onun idarəetmə sisteminin və proseslərinin planlaşdırılmış nəticələrdən kənara çıxmalara gətirib çıxaran amillərini müəyyən etməyə, həmçinin neqativ nəticələrin azaldılması üçün qabaqlayıcı mexanizmləri hərəkətə gətirməyə və yaradılmış imkanlardan maksimum istifadə etməyə imkan verir.

## ƏDƏBİYYAT


1. A.B.Abbasov. Biznesin əsasları, Bakı, 2005.
2. Xanhüsyn Kazımlı, İbrahim Quliyev. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi, Bakı, 2011.
3. X.H.Kazımlı. Qiymətləndirmənin əsaları, Bakı, 2008.
4. Qarayev İ.Ş., Ağabəyov Ş.A. və b. Qiymətin əmələ gəlməsi. Bakı, 2000.
5. İqbal Alıcan oğlu Babayev. Layihələrin idarə edilməsi. Layihələrin idarə edilməsi üzrə dərs vəsaiti. Bakı, "Zərdabi Nəşr" MMC nəşriyyat evi, 2020, 398 s.
6. N.Karayev. İnnovasiya menecmenti, Bakı, 2011.
7. Алознин А.П. Риск и его роль в общественной жизни, М., 1989.
8. Скамай М.Г. Способы реакции коммерческой организации на возникающие в процессе осуществления предпринимательской деятельности риски. http://risk-menecment/ru/azthtm
9. В.В.Боков, П.В.Забелин, В.Г.Федцов. Предпринимательские риски и хеджирование в отечественной и зарубежной экономике. Учебное пособие. М.: 1999.
10. Алгин А.П. Риск и его роль в общественной жизне. М., 1989.



***Мирсадиг Мирдамат оглу Тагизаде***
***магистрат***
***miri.taghizade@gmail.com***
***Фируза Наджаф кызы Алиева***
***доктор философии по экономическим наукам,***
***Азербайджанский Университет Кооперации***


## Методы и регулирование систем управления бизнес-рисками


***Резюме***

**Цель исследования** – Основной целью данного исследования было изучение оценки управления бизнес-рисками, исследование применения процесса проектирования интегрированной системы управления рисками проекта.

**Методология исследования** – В ходе исследования использовались методы обобщения и анализа, а также указы и распоряжения, связанные с развитием и регулированием национальной экономики.

**Прикладная важность исследования**–Методы и регулирование систем управления бизнес-рисками могут быть полезны для многих предприятий при правильной оценке проектов.

**Результаты исследования**–Большое значение имеет правильное обеспечение проектных рисков в управлении, оценка рисков, а также правильное управление рисками в процессе формирования экономической эффективности предприятия

***Ключевые слова: предприятие, риск, проект, бизнес, доход, финансы, анализ.***

***Mirsadig Mirdamat Tagizade***
***Master's Candidate***
***miri.taghizade@gmail.com***
***Firuza Najaf Aliyeva,***
***PhD in Economics,***
***Azerbaijan Cooperation University***

## Methods and regulation of business risk management systems

***Summary***

**Research purpose** –The main purpose of this research was to assess the management of business risks, to investigate the application of the process of designing an integrated project risk management system.

**Research methodology**– During the study, methods of generalization and analysis as well as decrees and orders related to the development and regulation of national economy were used.

**Research application** – Business risk management systems methods and regulation can be useful for many enterprises in the proper evaluation of projects.

**Research results** – Of significance are proper provision of project risks in management, risk assessment, as well as proper risk management in the process of shaping the economic efficiency of an enterprise

***Key words: enterprise, risk, project, business, income, funds, analysis.***